# Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli, 768-IQ nömrəli qanunu ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında Əsasnamə»də, Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli, 682-IIQ nömrəli qanunu ilə təsdiq edilmiş «Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında Əsasnamə»də və «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli, 768-IQ nömrəli qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 12; 2001-ci il, № 12, maddələr 731, 736; 2004-cü il, № 2, maddə 57; 2005-ci il, № 4, maddə 274, № 7, maddə 590; 2006-cı il, № 11, maddə 926; 2007-ci il, № 1, maddə 1, № 8, maddə 756; Azərbaycan Respublikasının 2007-ci il 19 oktyabr tarixli, 462-IIIQD nömrəli qanunu) ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsində *«etikaya»* sözü *«etik davranış qaydalarına»* sözləri ilə əvəz edilsin.

II. Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli, 682-IIQ nömrəli qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 514; 2006-cı il, № 3, maddə 221, № 11, maddə 927; 2007-ci il, № 8, maddə 756; Azərbaycan Respublikasının 2007-ci il 19 oktyabr tarixli, 462-IIIQD nömrəli qanunu) ilə təsdiq edilmiş «Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında Əsasnamə»nin 10-cu maddəsində *«etikaya»* sözü *«etik davranış qaydalarına»* sözləri ilə əvəz edilsin.

III. «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 7, maddə 586; 2007-ci il, № 1, maddə 1, № 8, maddə 756; Azərbaycan Respublikasının 2007-ci il 19 oktyabr tarixli, 462-IIIQD nömrəli və 23 oktyabr tarixli, 465-IIIQD nömrəli qanunları) 10.0.11-ci maddəsində *«qulluq etikası normalarına»* sözləri *«etik davranış»* sözləri ilə əvəz edilsin.

IV. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 2 iyun 2008-ci il***

***№ 616-IIIQD***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (10 avqust 2008-ci il, № 176) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 avqust 2008-ci il, № 8 (134), maddə 694) («VneshExpertService» LLC).***